Tarix və onun problemləri, № 2 2014

**SEVINC BAĞIROVA**
***GDU-nun Azərbaycan tarixi kafedrasının baş müəllimi***

# AZƏRBAYCAN RESPUBLIKASI TƏHSIL NAZIRLIYININ AVROPA ŞURASI ILƏ ƏMƏKDAŞLIĞI

*Açar sözlər:* Təhsil Nazirliyi, Avropa Şurası, ali təhsil, inteqrasiya.
*Ключевые слова:* Министерство Образования, Совет Европы, высшее образования, интеграция.
*Key words:* Ministry of Education, European Council, higher education, integration.

XX əsrin 90-cı illərindən başlayaraq, dünyanın aparıcı ölkələri öz təhsil sistemlərinin yeniləşdiriməsi yoluna qədəm qoydular. Azərbaycan ali təhsil sferasında meydana çıxan və keçid iqtisadiyyatlı ölkələrə xas olan böyük çətinliklər yaşayır. Məlumdur ki, totalitar sistemin hökm sürdüyü şəraitdə Azərbaycan beynəlxalq arenaya birbaşa çıxış imkanından məhrum idi. Yenidən müstəqillik qazanmış Azərbaycan üçün müstəqil xarici siyasətin formalaşdırılması faktiki olaraq yeni və tanış olmayan fəaliyyət istiqaməti oldu. Çox böyük çətinliklərə rəğmən, gənc Azərbaycan Respublikası ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə ən qısa müddətdə beynəlxalq nüfuzunu möhkəmləndirməyə, özünü beynəlxalq münasibətlərin tamhüquqlu subyekti kimi tanıtmağa nail oldu. Azərbaycan Respublikasında ali təhsil sahəsində beynəlxalq təcrübə üçün geniş üfüqlər açılmışdır.

Təhsil sistemində ən dərin və geniş miqyaslı dəyişikliklər Avropa qitəsində baş verir: burada təhsil sferasında dövlət sərhədləri ləğv olunur və təhsilin ümumavropa inteqrasiya sistemi formalaşır.

Bu məqalədə Azərbaycan Respublikası Təhsil Nazirliyi ilə Avropa Şurası arasında təhsil sahəsində səmərəli əməkdaşlığının nəzərdən keçirilməsi və bu kontekstdə Azərbaycanın həyata keçirtdiyi təhsil siyasətin təhlil edilməsi məqsəd olaraq qoyulmuşdur. Ümumilikdə Azərbaycan Respublikası Təhsil Nazirliyi ilə Avropa Şurası münasibətlərinə qısaca nəzər saldıqda görə bilərik ki, Avropa Şurası ölkəmizdə təhsil sahəsində aparılan islahatlara konsultativ və ekspert yardımı göstərən ən fəal beynəlxalq partnyorlardan biridir. Azərbaycan Respublikası Təhsil Nazirliyi ilə Avropa Şurası arasında təhsil sahəsində səmərəli əməkdaşlıq Azərbaycanın Avropa Şurasına rəsmi daxil olmasından xeyli əvvəl yaranmışdır.

Avropa Şurasının himayəsi altında ilk birgə layihələrin həyata keçirilməsi 1996-cı ildən başlanmışdır. Buna misal olaraq «Təhsil keyfiyyətinin təmin edilməsi sahəsində qanunvericilik» və «Tbilisi təşəbbüsü» kimi böyük regional layihələri göstərmək olar[3].

1998-ci ildə Azərbaycan Respublikasının Təhsil Nazirliyi Avropa Şurası Baş Katibinin «Tbilisi təşəbbüsü» layihəsinə qoşulmuşdur. Bu layihə Avropa ümumtəhsil məktəblərinin 15-16 yaşlı şagirdləri üçün «Qafqaz xalqlarının tarixi» dərs vəsaitinin hazırlanmasını nəzərdə tutur. Avropa Şurası tərəfindən təqdim olunmuş və region ölkələri tərəfindən qəbul edilmiş prinsiplərə söykənən bu vəsaitin yazılmasında regionun 4 dövlətindən (Azərbaycan, Gürcüstan, Ermənistan və Rusiya Federasiyası) olan müəlliflər qrupu və Avropa Şurasının Böyük Britaniya, Polşa, Almaniya və Hollandiyadan dəvət edilmiş ekspertləri və naşirləri iştirak ediblər.

Layihənin əsas məqsədi Qərbi Avropa ölkələrinin orta məktəb şagirdlərini Azərbaycan və digər Qafqaz ölkələri xalqlarının tarixi, ənənələri və mədəniyyəti ilə tanış etməkdir.

Vəsaitin ingilis dilində çap olunması nəzərdə tutulur. 2004-cü ildə dərs vəsaitinin son variantı Avropa Şurasına təqdim olunmuşdur. Dərs vəsaitinin siqnal nəşri 2005-ci ildə çap edilib təsdiq olunmaq üçün layihədə iştirak edən ölkələrə göndərilmişdir[4].

Digər vacib tədbir Azərbaycan Respublikası Təhsil Qanununun yeni layihəsinin Avropa Şurasında müzakirəsindən sonra Bakıda bu təşkilatın ekspertləri ilə layihənin hazırlanmasında iştirak etmiş azərbaycanlı mütəxəssislər və Milli Məclisin müvafiq komissiyasının üzvləri ilə aparılmış məsləhətləşmələr olmuşdur. Avropa Şurasının ekspertləri bu müzakirənin nəticələrinə aid məruzələrini 2001-ci ilin yanvar ayında Milli Məclisə və Azərbaycan Respublikası Təhsil Nazirliyinə təqdim etmişlər.

2000-ci ildə Azərbaycan Respublikası Təhsil Nazirliyi Avropa Şurasının «Ermənistanda, Azərbaycanda və Gürcüstanda təhsilin keyfiyyətinin təmin edilməsi sahəsində qanunvericilik» adlanan mühüm regional layihəsinə qoşulmuşdur. Həmin layihə Azərbaycana təhsilin keyfiyyətinin təmin edilməsi üzrə beynəlxalq standartlara uyğun mexanizmlərin (akkreditasiya, lisenziya verilməsi, diplomların tanınması) yaradılmasına yardım göstərməyi nəzərdə tutur. Eyni zamanda, bu layihə göstərilən sahələrdə beynəlxalq əməkdaşlıq üçün geniş imkanlar yaratmışdır.

Həmin layihə çərçivəsində 2000-2003-cü illərdə Azərbaycanda Avropa Şurası ekspertləri ilə çalışan birgə işçi qruplarının iclasları keçirilmişdir.[2] By iclaslarda Azərbaycanda akkreditasiya, lisenziya verilməsi və təhsilin keyfiyyətinə nəzarət sahəsində effektiv hüquqi-normativ sənədlərin işlənməsi və təsdiq olunması məsələləri ilə bağlı müzakirələr və fikir mübadiləsi aparılmışdır.

Görülən işlərin nəticəsində 2001-ci ilin may ayında Bakıda üç Qafqaz ölkəsi Təhsil nazirlərinin II Regional Konfransı keçirilmişdir[1]. Konfransda Avropa Şurası Baş Katibinin Siyasi məsələlər üzrə müşaviri cənab Klans Şuman, Avropa Şurasının Departament rəisi və Avropanın bir sıra nüfuzlu ekspertləri iştirak etmişdir.

Azərbaycana səfər zamanı cənab K. Şuman Azərbaycan Respublikası Təhsil naziri Misir Mərdanovla rəsmi görüş keçirmişdir. Görüş zamanı Azərbaycanla Avropa Şurası arasında səmərəli əməkdaşlığın genişləndirilməsi məsələləri müzakirə olunmuşdur. Həmin görüşdə qəbul olunmuş qərarlar Avropa Şurası ilə Təhsil Nazirliyi arasında əməkdaşlığın əsasını qoymuş və sonrakı illərdə müvəffəqiyyətlə həyata keçirilmişdir.

Bu layihə çərçivəsində əldə olunmuş səmərəli təcrübə və informasiya ali təhsil müəssisələrinin akkreditasiyası (2003) və ali təhsil sahəsində xarici diplomların tanınması (2004) üzrə yeni normativ sənədlərin hazırlanmasında geniş şəkildə istifadə olunmuşdur. Layihənin uğurla həyata keçirilməsi Cənubi Qafqaz ölkələri Təhsil nazirlərinin 2004-cü ildə Strasburq şəhərində keçirilmiş Konfransında vurğulanmışdır və həmin konfransda nazirlər birgə Bəyannamə qəbul etmişlər.

Avropa Şurasının Baş katibi cənab Valter Şvimmerin təşəbbüsü ilə 17-18 may 2005-ci il tarixlərində Strasburqda Cənubi Qafqaz ölkələrinin Təhsil nazirlərinin konfransı keçirilmişdir. Konfransın əsas məqsədi iştirakçıları və Avropa Şurası ekspertlərini Cənubi Qafqaz ölkələrində ali təhsil sahəsində keçirilən islahatların gedişi və təhsilin inkişafının prioritet istiqamətləri ilə tanış etmək, eyni zamanda Avropa Şurası ilə birgə həyata keçirilmiş layihə və proqramların nəticələrinin və 2004-2006-cı illər üçün əməkdaşlıq proqramlarının müzakirəsi idi. Azərbaycanda həyata keçirilən islahatlar haqqında, o cümlədən təhsilin keyfiyyətinin təmin edilməsi, ali təhsil sahəsində xaricdə qazanılmış ixtisasların tanınması, ali təhsil müəssisələrinin attestasiya və akkreditasiya proseduru haqqında ətraflı məlumatlar verilmişdir. Eyni zamanda, 1999-cu ildə başlanmış Bolonya prosesinə qoşulmaq niyyəti

Avropa Şurasına çatdırdı. Avropa Şurasının rəhbərliyi tərəfindən qeyd olundu ki, təşkilat Azərbaycana Bolonya prosesinin şərtlərini yerinə yetirmək üçün konkret ekspert və konsultativ yardım göstərməyə hazırdır. Bu istiqamətdə müvafiq tədbirlərin həyata keçirilməsi məsələləri 2005-2006-cı illər üçün Avropa Şurası ilə əməkdaşlıq proqramına daxil olundu. Konfransın birinci gününün yekununda qarşılıqlı əməkdaşlığın prioritet istiqamətləri və bir neçə konkret layihə, o cümlədən məcburi köçkün uşaqlar üçün təhsilin keyfiyyətinin yüksəldilməsi, ali təhsil sahəsində ixtisasların tanınmasında ekspert yardımının göstərilməsi haqqında müzakirələr oldu.

Avropa Şurasının Təhsil üzrə direktoru cənab Qabriel Mazza, Avropa Şurasının Ali təhsil və tədqiqatlar departamentinin direktoru cənab Şur Berqan və Gürcüstanın təhsil naziri cənab Aleksandr Lomaya ilə çox səmərəli görüşlər keçirdi. 18 may 2005-ci il tarixində üç Cənubi Qafqaz ölkəsinin nümayəndə heyəti başçılarının Avropa Şurasının Baş Katibi cənab Valter Şvimmerlə birgə görüşü oldu. Görüş zamanı cənab Şvimmer bir də vurğuladı ki, Avropa Şurası Qafqaz regionuna xüsusi diqqət yetirir və gələcəkdə də bu təşkilat Cənubi Qafqaz ölkələrinə müasir tələblərə tam cavab verən təhsil sistemlərinin qurulmasında lazımi yardım göstərəcəkdir.[4] Azərbaycan Respublikası Təhsil Nazirliyi ilə Avropa Şurası arasında uğurla həyata keçirilən birgə layihə və proqramlar haqqında qısa məlumatlar verildi. Eyni zamanda bildirildi ki, Ermənistanın Azərbaycana qarşı davam edən təcavüzü regional əməkdaşlığın səmərəli şəkildə həyata keçirilməsinə problemlər yaradır və bu münaqişə öz həllini tapana qədər Azərbaycanın Ermənistanla heç bir sahədə, o cümlədən təhsil sahəsində əməkdaşlığı mümkün deyil. Bu faktı nəzərə alaraq 2005-2006-cı illər üçün əməkdaşlıq proqramının müzakirəsi zamanı bəzi aspektlərə, xüsusilə regional miqyasda məktəblilərin mübadiləsi proqramına yenidən baxılmaq haqqında təklifi Avropa Şurası rəhbərliyi tərəfindən qəbul olundu. Konfransın sonunda nazirlər müvafiq bəyannamə, 2004-cü və 2005-2006-cı illər üçün əməkdaşlıq üzrə Çərçivə proqramı və digər sənədləri qəbul etdilər[2].

Avropa Şurası ilə təhsil sahəsində əməkdaşlığın istiqamətlərindən biri də Azərbaycanın Bolonya prosesinə inteqrasiyası çərçivəsində müxtəlif layihələrin icrasıdır. Avropa Şurasının Ali Təhsil və Tədqiqatlar üzrə Rəhbər Komitəsi Avropa Vahid Ali Təhsil Məkanının formalaşması üçün kifayət qədər əhəmiyyətli tədbirlər həyata keçirir. Bir çox hallarda bu tədbirlər Avropa İttifaqının təhsil üzrə müvafiq qurumları ilə əlaqəli şəkildə təşkil olunur. Bu tədbirlər sırasında Bolonya prosesinə yeni qoşulmuş ölkələrdə ali təhsil sahəsində islahatlara yardım göstərmək məqsədilə təşkil olunan müxtəlif seminar və konfranslar xüsusilə qeyd olunmalıdır.

## ƏDƏBİYYAT

1. «Azərbaycan müəllimi», qəzeti, 21 may, 2001
2. «Azərbaycan müəllimi», qəzeti, 6 iyul, 2005
3. Ахмедов Г. История развития школы в педагогической системе Азербайджана. Баку: Техсил, 2002, 358с.
4. Mətbuat və təhsil müəssisəsi. Bakı: Təhsil nəşr., 2006
5. Нейматов Я.М. Образование в XXI веке: тенденции и прогнозы. М., Алгоритм, 2002, 240с.

**СЕВИНДЖ БАГЫРОВА**

## СОТРУДНИЧЕСТВО МИНИСТЕРСТВА ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ С СОВЕТОМ ЕВРОПЫ

В научной статье рассматриваются основные вопросы развития высшего образования в республике, вопросы сотрудничества Министерства Образования Азербайджанской Республики с Советом Европы. Реализация международных программ в системе высшего образования Азербайджана. Исследуется процесс интеграции высшей школы Азербайджана в Европейское образовательное пространство.

**SEVINDC BAGIROVA**

## INTERNATIONAL RELATIONS OF THE MINISTRY OF EDUCATION OF THE AZERBAIJAN REPUBLIC AND EUROPEAN COUNCIL

The scientific article examine an attempt to disclose major problems of development of high education in the republic. There is discovered the participation of the Republic's higher schools in the realization of international programs. The paper investigates the field of cooperation in higher education between Azerbaijan and European Council.

***Rəyçilər: t.e.n. E.Aslanova, t.e.d. İ.Zeunalova***
***Gəncə Dövlət Universitetinin Azərbaycan Tarixi kafedrasının 27 fevral 2014-cü il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol № 8)***